# Beynəlxalq yarışa və Ümumrespublika birinciliyinə yekun vurulub





***İyunun 29-da Qəbələ şəhərində Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Fövqəladə Hallar Nazirliyi işçiləri Həmkarlar İttifaqının, Təhsil, Gənclər və İdman nazirliklərinin, Qəbələ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən "Gənc xilasedici" VII Beynəlxalq yarışına və "Gənc xilasedici və yanğınsöndürən" VIII Ümumrespublika birinciliyinə yekun vurulub.***





Heydər Əliyev Konqres Mərkəzində təşkil olunmuş mükafatlandırma mərasimində Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev, FHN işçiləri Həmkarlar İttifaqının sədri Mehman İsmayılov, Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, Təhsil nazirinin müavini Firudin Qurbanov və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev iştirak ediblər.

Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbirdə, əvvəlcə yarışlar haqqında FHN-in hazırladığı videoçarx nümayiş olunub. Sonra bədii hissə ilə davam edən tədbirdə qaliblərə kubok, diplom, fəxri fərman, qiymətli hədiyyələr, digər iştirakçılara isə fəxri fərman və xatirə hədiyyələri təqdim olunub.

Qeyd edək ki, komandalar yarışlarda "Maneələr zolağı", "Kombinə edilmiş yanğın estafeti", "Axtarış-xilasetmə işi", "Komandaların təqdimatı" və "Divar qəzeti" mərhələlərində güclərini sınayıblar. Beynəlxalq yarışda birinci yeri Azərbaycan, ikinci yeri Belarus, üçüncü yeri isə Gürcüstan komandaları tutub. Ümumrespublika birinciliyində isə birinci yerə Sumqayıt şəhər 43 nömrəli məktəbin komandası, ikinci yerə Şamaxı, üçüncü yerə isə Ucar rayonunun komandaları layiq görülüb. Həmçinin, Bakı şəhəri 2 nömrəli Sağlamlıq imkanları məhdud uşaqlar internat məktəbinin komandasında təltif olunub.

**"Qəbələ"**

# Qəbələdə Azərbaycan-İsveçrə əməkdaşlığına həsr olunan birgə konsert



***Qəbələdə Azərbaycanla İsveçrə arasındakı texniki əməkdaşlığın 20 illiyinə həsr olunan birgə konsert keçirilib.***

Qəbələ Mədəniyyət Mərkəzində təşkil olunan konsertdə İsveçrənin "İl Mosaico" Gənclər Orkestri və violonçel ustası Orxan Hüseynov çıxış edib.

İsveçrənin Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə keçirilən konsertdən əvvəl musiqisevərlərimizi salamlayan Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova Azərbaycan-İsveçrə dostluğunun tarixindən, bu gün ölkələrimiz arasında mövcud olan ikitərəfli əməkdaşlıqdan, iqtisadi və mədəni əlaqələrdən ətraflı danışıb.





Sonra İsveçrə Konfederasiyasının Azərbaycandakı Səfirliyinin konsulu Yürq Noynşvander çıxış edərək belə tədbirlərin ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini vurğulayıb.

Musiqiçilər tərəfindən ifa olunan klassik Avropa və Azərbaycan bəstəkarlarının əsərləri tamaşaçıların alqışları ilə qarşılanıb.

**"Qəbələ"**

**Səhrab Umuyev (foto).**

## Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya yaradılacaq

İyulun 4-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya"nın yaradılması haqqında" Fərman imzalayıb. Fərmana əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində iki ay müddətində əmək bazarı və sosial müdafiə sahələrində mövcud vəziyyətin qiymətləndirilməsini, inkişaf meyillərinin öyrənilməsini və monitorinqləri həyata keçirən, bu sahələrdə səmərəli idarəetmə qərarlarının qəbul edilməsi məqsədilə təhlil və proqnozlar hazırlayan, publik hüquqi şəxs statuslu Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya yaradılacaq.

## Arxeoloji mərkəzlə tanış olublar

İyunun 27-də "Dünya irsi. Gənc Peşəkarlar Forumu"nun iştirakçıları Qəbələ Arxeoloji Mərkəzi ilə tanış olublar.

Qeyd edək ki, adıçəkilən forum UNESKO-nun Dünya İrs Komitəsinin iyunun 30-dan iyulun 10-dək Bakıda keçirilən 43-cü sessiyası çərçivəsində təşkil edilib.

İyulun 2-dək davam edən forumunda dünyanın 30 ölkəsini təmsil edən 30 gənc irs mütəxəssisi iştirak edib. Son illər Dünya İrs Komitəsinin illik sessiyaları çərçivəsində ənənəvi olaraq təşkil olunan Gənc Peşəkarlar Forumunun builki mövzusu "Ümumdünya irsi: qlobal çağırışlar üçün yerli ideyalar"a həsr edilib. Forumun ümumi məqsədi XIX əsrdə dünyada irsin idarə edilməsində mövcud problemlər və imkanların üzə çıxarılmasıdır.



**"Qəbələ"**